# "MÜHARİBƏ və İNSAN" mövzusunda hekayə müsabiqəsinin yekunlarına dair

Ədəbiyyat sevgisini insanların qəlbinə birdəfəlik aşılaya bilsək, bu, ən insani dəyərlərin başı olardı. Ədəbiyyat da səmavi dinlər gücündədir. Burda hər kəs oxuduğundan insanlıq adına öz hədisini, surəsini yaradır, eynilə cənnət vədi, cəhənnəm qorxusu var Ədəbiyyatda. Hakimi-mütləq olan da Oxucudur. Çətini, sanballı oxucu səviyyəsini bəlirləyən bədii əsərlər yazmaqdır, belə mətnlərin özü özünü yayıb oxudacaq, əldən-ələ gəzəcəkdir.

Müasir Ədəbiyyatımızın üzdə olan əsərlərini kimsə ələkdən keçirib dəyərli olanlarını müəyyənləşdirməlidir. Mənim üçün bunu etməyə cəhdin özü belə - öz adıma deyirəm - qələt olardı. Amma bilənlər bilir ki, keçən ilin sentyabr ayında "Müharibə və insanlar" mövzusunda hekayə müsabiqəsi elan etmişdim. Bir az "yekə" səslənir, amma qərarı verərkən tam anlaqlı, səmimi olmuşam və heç bir başqa məqsəd güdməmişəm. İş orasındadır ki, 23 il görüşmədiyim müharibə dostlarımla yığışmışdıq. Bizim o vaxtkı pulemyotçumuz Samir indiyədək bilmədiyimiz bir hekayəsini danışdı, - "Evimizə zəng vurdum: Ata, evə qayıdıram, amma tək deyiləm. Döyüş yoldaşımı da özümlə gətirirəm. Amma bəribaşdan bilmənizi istəyirəm, o, minaya düşüb, bir qolunu və dizdən aşağı bir ayağını itirib. Onun bu halda gedəcək yeri yoxdur. Əgər istəyirsinizsə mən sizinlə birlikdə yaşayım, onu da öz övladınız kimi qəbul edin. Yoxsa..."

Bu "yoxsa"dan o yanası təxəyyül bacarığı olan hər yazıçı üçün min bir şaxəli geniş üfiqlər açırdı... Uzun sözün gödəyi, Samirin hekayəti məni elə tutdu ki, bunu hekayə şəklinə salıb bədiiləşdirmək istədim. Amma razılaşın ki, bu, bir qələmin işi deyil və ona görə dərdi bölüşmək adına bir neçə gündən sonra Samirin hekayəsinin davamını yazmaq üçün dostlara hekayə müsabiqəsinə qoşulmağı təklif etdim. Məqsədim, bu natamam, amma hər halıyla təxəyyüldə geniş mənzərələr, variantlar yaradan kiçik "ev tapşırığı"nın müxtəlif çeşnidə dəyərli qələm adamlarımızın qələmində necə alınacağını görmək idi.

Dörd aya yaxın müddətdə "Müharibə və insan" mövzusunda hekayə müsabiqəsinə 9 hekayə göndərildi. Səsimə səs verən həmin 9 nəfər həssas dostlara bəribaşdan minnətdaram. Belə götürəndə, bu mənim müsabiqəm idi, təşkilatçısı da, əziyyətinə qatlaşan münsifi də özüm idim. Və oxucu-münsif kimi mətnlərin bədii dil və təhkiyə, bədii təsvir, mətnqurma, xarakter yaratmaq, mövzu qapanması, əsərin ritmi və energetikası, yazarın təxəyyül və fantaziyası elementləri üzrə qiymətləndirilməsini aparmağı məqsəd seçdim. Bədii elementin hər biri üçün maksimal 10, mətnin keçid balı üçün 50, ümumilikdə isə qalibin balını 60 bal və ondan yuxarı təyin etdim və hər dəfə vicdanımı tərəzinin bir gözünə, göndərilən mətni digər gözünə qoyub əsərləri çəkməyə girişdim. Nəticə aşağıdakı cədvəldəki kimi alındı.

İştirakçıların azlığı, göndərilən əsərlərin heç birinin müsabiqə üçün keçid 50 balı toplaya bilməməsi, əslində, müsabiqənin alınmaması anlamına gəlsə də, "Söz ağızdan çıxar!" - Ədəbiyyat adına nəsə qazandırmalıyıq. Odur ki, qərara gəldim ki, heç olmazsa, son dövrdə qələm adamlarının təbliğində qərəzsiz mövqe tutan, yazarların təbliğinə həvəslə və təmənnasız qapısını açan "Xəzan" jurnalının növbəti sayının çap xərclərini üzərimə götürməklə müsabiqəyə yekun vuram. Ümidvaram ki, iştirakçıların heç biri bundan inciməz və haqlarını halal edərlər.

Hər kəs bir damla su töksə Ədəbiyyatımız hüdudsuz ümmana dönər...

*Hörmətlə, sizin Rəşid.*

**P.S. Hekayələri isə, əgər etiraz olmazsa, çap üçün "Xəzan" jurnalına göndərə bilərəm.**

**P.S.S. Mina Rəşidin göndərdiyi 6 kiçik xatirə xarakterli yazı müsabiqənin sərhədləri xaricində olduğu üçün qiymətləndirilməyib.**

| Göndərilmə tarixinə uyğun sıra ardıcıllığı | Hekayə və müəllifi | Qiymətləndirilən bədii elementlər və toplanan ballar | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Bədii dil və təhkiyə | Bədii təsvir ustalığı və mövzu qapanması | Mətnqurma ustalığı | Xarakter yaratmaq | Ritm | Təxəyyül və fantaziya | Cəmi |
| 1 | "Oğul" – Meyxoş Abdulla | 10 | 3 | 5 | 1 | 3 | 0 | 22 |
| 2 | "Əsarət" – Yaşar Süleymanlı | 5 | 10 | 8 | 7 | 2 | 8 | 40 |
| 3 | "Qəlpə gəzdirən" – Yaşar Bünyad | 10 | 10 | 7 | 6 | 8 | 3 | 44 |
| 4 | "Qaçqınçılıq" – Hicran Hüseynova | 7 | 5 | 3 | 8 | 1 | 6 | 30 |
| 5 | "Bizi umudsuz qoyma" – Əli Bəy Azəri | 10 | 10 | 4 | 7 | 1 | 4 | 36 |
| 6 | "Bir dəstə qızılgül" – Ayaz İmranoğlu | 8 | 9 | 5 | 7 | 10 | 5 | 44 |
| 7 | "Qar yağır ürəyimə" – Mina Rəşid | - | - | - | - | - | - | - |
| 8 | "Qızıl" – Kəmalə Əliyeva | 2 | 3 | 3 | 8 | 8 | 8 | 32 |
| 9 | "Torpaq qoxusu" – Şəfaqət Cavanşirzadə | 8 | 10 | 8 | 5 | 10 | 5 | 46 |